

SƏRVƏR MƏSUM

## UlA, BOZ QURDUM, ULA

RUHUM QALIB ÖTƏN ÇAĞDA,
SAVALANDA, AĞRIDAĞDA.
BOZKIRLARDA, TANRIDAĞDA,
SIRALANSIN ORDUM, ULA,
ULA, BOZ QURDUM, UIA.

ULA, DÖNSÜN OĞUZ, MƏTƏ,
BU AYRILIQ BƏLKƏ BİTƏ,
BİR AZ RUH VER BU MİLLƏTƏ,
DÖNÜR ARTIQ ULUS QULA,
ULA, BOZ QURDUM, ULA.

DARIXIBDI KEÇİLƏN İZ,
DƏRBƏND ELİ, KƏRKÜK, TƏBRİZ,
ARXANCAYIQ YENƏ DƏ BİZ,
VER RUHUMU, DÜŞƏK YOLA,
ULA, BOZ QURDUM, ULA.

GERİ DÖNDƏR SƏN TƏKƏRİ,
AL YANINA HƏR ƏSGƏRİ,
GÜN BATANDAN ÜZÜ BƏRİ,
BİZİM OLSUN HƏR BİR QALA,
ULA, BOZ QURDUM, ULA.

VAXTDI, BİTİR BU ZİLLƏTİ,
SÖZÜNÜ DE KƏSKİN, QƏTİ,
QALDIR, QALDIR, BU MİLLƏTİ,
AVROPADA OCAQ QALA,
ULA, BOZ QURDUM, ULA.

ÖZBƏK, QIRĞIZ, TATAR, NOQAY,
YAKUT, BAŞKURT, YA KARAÇAY,
BU ULUSA DÜŞSÜN HARAY,
VARIB GEDƏK İSTANBULA,
ULA, BOZ QURDUM, ULA.

ÜMİDİNİ ÜZMƏ, SƏRVƏR,
SƏN DƏ HARAY ÇƏK BU SƏHƏR,
QOŞULACAQ ÇOX KƏND, ŞƏHƏR,
TÜRK OĞLUYLA GİR QOL-QOLA,
ULA, BOZ QURDUM, ULA.

## BƏNÖVŞƏM

Adın gözəllərin göyçəyindədi...
Ürkəklik özündə, ləçəyindədi...
Həsrət yarpağında, çiçəyindədi...
Sənsən ilk baharda sevincim, nəşəm,
Gözlə gələcəyəm kəndə, bənövşəm.

Sərgi yaradırsan yamacda, düzdə,
Bir dünya sevincsən könüldə, gözdə,
Səni kim yandırdı ocaqda, közdə,
Könlünə sığarmı bucağım, köşəm,
Gözlə gələcəyəm kəndə, bənövşəm.

Özünə yer elə bulaq başında,
Ovcunu göyə aç yaz yağışında,
Vüsala cığır aç bir göz yaşında,
Bəlkə mən o zaman yadına düşəm,
Gözlə gələcəyəm kəndə, bənövşəm.

## QAYITDIM

Döndüm uşaq çağlarıma bu gecə,
Qonşunun qapısın döydüm, qayıtdım.
Başına qalıbdı bu dalan, küçə,
Qarğıdım fələyi, söydüm, qayıtdım.

Yenə güneylərdə bafanı sərdim,
Yenə kal almanı budaqdan dərdim,
Yenə susuz qalıb bostanım, kərdim,
Narzan bulağına dəydim, qayıtdım.

O kimdi danışır divlərin haqda,
O kimdi ayağı qalıb qaçaqda,
Alyanaq gilaslar qaldı budaqda,
Uca budaqları əydim, qayıtdım.

Sabahlar oyatdı xoruzun banı ,
Əlimdə çomaqla gəzdim yarğanı ,
Yallama mindiyim çilli at hanı....
.... İlləri əynimə geydim , qayıtdım.

## DÜŞÜR...

İçimdə bir sevda ölür, dirilir,
Tutacam deyirəm, əlimdən düşür.
Dərdlərim çiynimdə yükə çevrilir,
Düzəldim deyirəm, belimdən düşür.

Dərdə mübtəladı il üstündə il,
Bu ağrı fələyin vecinə deyil.
Telimdən asılıb dünya elə bil,
Əlimi atıram telimdən düşür.

Sınadım səhrada yəcuc-məcucu,
Neçə yaramaza toxundu ucu.
Bilmirəm növbədə kimdi sonuncu,
Mənim də alqışım dilimdən düşür.

## İÇİMDƏN GƏLİR

Fələk mənnən çilingağac oynuyur,
Deyir ki, əlimin içindən gəlir.
Əlini hərdən də belinə qoyur,
Elə bil yorulub, biçindən gəlir.

Ey insan, içində iblisi tanı,
Tərsinə toxuyur ipi, qaytanı,
Doldurub dünyaya cini, şeytanı,
Şeytan da İrandan, ya Çindən gəlir.

Deyəsən, veribdi haqqı nahaqqa,
Onunçun belində bərkimir toqqa.
Qutuda min cürə çıxarır hoqqa,
Deyirsən seçkidən, seçimdən gəlir.

Fələyin hər işi oyundur, oyun,
Kiminə yas qurur, kiminə oyun.
Kiminsə gecələr oxşayır boyun,
İnçimək mənim də içimdən gəlir.

## BU GECƏ...

Bu gecə bir qəşəng şəklimi çəkin,
Bu gecə sabaha çıxmadım bəlkə.
Sizə də deyirəm ürəyimdəkin,
Bir də dan yerinə baxmadım bəlkə.

Oturum, bir dəmli çayı da süzün,
Üfürüm sakitcə soyudum içim.
Qoy, sıxım ovcuma allansın üzüm,
Özümə sığınım kölgəmdən keçim.

Deyəsən, bağlıdı qapı-pəncərə,
Deyəsən mələklər durubdu hazır.
Olan günahımı gündəliklərə,
Mələklər qanıma batırıb yazır.

Mənə elə gəlir gedəcəm indi,
Elə yol gedəcəm sabaha qədər
Əvvəli həmindi, sonu həmindi,
Bir ömrü dünyada yaşadım hədər.

Sakit ol bir azca ürək, ay ürək...
Mənimtək sənin də sonundu bəlkə.
Məni yarı yolda qoymazdın gərək...
Səninlə bir ölmək qanundu bəlkə?

## QARDAŞ

Düşman yenə hər tərəfdə,
Qurub yeni tuzaq, qardaş.
Qayıt yurda, düşmənlərin,
Məzarını qazaq, qardaş.

Atıb yenə çovğun, tufan,
Üfüqlərdən üzülür dan.
Damarımda qaynayır qan,
Kəsir məni sazaq, qardaş.

Qurtar artıq təklikdən, gəl,
Gəl Təbrizdən, Kərkükdən gəl.
Xəbər gətir hər türkdən, gəl,
Yenə tarix yazaq, qardaş.

İblis kəsib sağı, solu,
Uzaq qalıb Anadolu.
Bax, görünür Turan yolu,
Olma bizdən uzaq, qardaş.

Ötükənə sal bir haray,
Göylər bizə göndərsin pay.
Gəlsin uyğur, tatar, noqay,
Gəlsin özbək, qazax, qardaş.